**UOT 82**
https://doi.org/10.59849/2311-8482.2025.4.34

**KÖNÜL ƏHMƏDOVA-YUSİFOVA***

# MƏŞHUR ARXETİP NÜMUNƏSİ – ŞƏN ADAM (TƏLXƏK)

*Yunan mənşəli "arxetip" sözü arche – "başlanğıc, ilkin mənbə", typos – "obraz, forma" deməkdir. İsveçrəli psixoloq Karl Yunq bu anlayışın məşhur izahını vermişdir.*

*Onlar – təlxəklər pis niyyətlə hərəkət etməsələr də hiyləgər planlar quraraq baş verəcək və ya həmin an yaşanacaq hadisəni öz istədikləri şəkildə həyata keçirməyə qadirdir. Hiyləgərlər üçün əsas həyatın özü deyil, baş vermişlər içərisində ardıcıllığın özü önəmlidir. Bu obrazlar həm əsas qəhrəman, həm də ikinci dərəcəli obraz ola bilər. Lakin hər hansı halda onlar öz istəklərinə çatan bir "hiyləgər"dir. Bu hiyləgərlər çox vaxt gülüş obyektinə çevrilirlər. Yung nəzəriyyəsində də hiyləgər, fırıldaqçı ümumi davranış qaydalarına tabe olmayan iblis-komik personajların obrazlarını formalaşdıran kollektiv şüursuzluq arxetipidir.*

***Açar sözlər:*** *təlxək, oyunbaz, gülüş, hiyləgər, obraz, arxetip, mifalogiya, Karl Qustav Yunq, Şekspir.*

## Giriş

İnsan hissləri subyektiv xarakter daşıyır. İncəsənət isə gerçəkliyin bədii əksi olaraq insan hisslərini təsvir edən bir vasitədir. Mazel söyləyib: "... eşitmə təəssüratı ümumiyyətlə görmə təəssüratından fəaldır. Eşitmə təəssüratı bir qayda olaraq güclü təsir göstərir; gündəlik həyatda onlar insana daha asanlıqla təsir edirlər; nəhayət onlar səsli fəaliyyət, hərəkət haqqında təsəvvürlə psixoloji şəkildə bağlanırlar. ...Görmə ilə müqayisədə eşitmə təəssüratının bu fəallığı musiqinin güclü təsirinin ilkin şərtlərindən biridir. Bir cəhət də olduqca vacibdir ki, eşitmə təəssüratının fəallığı sayəsində adamların əsas ünsiyyət vasitəsi insanın eşitmə qabiliyyətinə yönəldilən məhz səsli nitq kimi əmələ gəlmişdir. Musiqi nitqlə çox bağlıdır və bu əlaqə musiqinin zəngin ifadə imkanlarını müəyyənləşdirir" [2, s.15].

İnsan psixologiyasının əsas elementi hissdir. Psixologiyanın öyrəndiyi psixi hadisələr – psixi proseslər, psixi hallar, psixi xassələr olmaqla insandakı idrak prosesləri, emosional proseslər, iradi prosesləri bütünlüklə ehtiva edir. Araşdırdığımız mövzu ilə bağlı olaraq psixologiya elmində yaranmasına baxmayaraq, əsasən incəsəntdə və ədəbiyyatda istifadə olunan arxetiplər nəzəriyyəsi xüsusi ilə vurğulanmalıdır.

"Arxetip" sözü yunan mənşəlidir: *arche* – "başlanğıc, ilkin mənbə", *typos* – "obraz, forma" deməkdir. Ümumi mənada arxetip — bu və ya digər mədəniyyətdə, sənətdə, mifologiyada və insan təfəkküründə təkrar olunan ilkin obraz, ümumbəşəri simvol və ya xarakter tipidir.

Məşhur isveçrəli psixoloq Karl Yunq özünün kollektiv şüursuzluq nəzəriyyəsində bu anlayışın izahını verib: "arxetip anlayışı dünya ədəbiyyatındakı miflərin və nağılların dünyanın harasında və nə zaman olursa-olsun müəyyən motivləri ehtiva etməsini nümayiş etdirən saysız müşahidələr əsasında ortaya çıxmışdır. Eyni motivləri günümüzdəki insanların fantaziyalarında, yuxularında, sayıqlamalarında, xəyaladalmalarında da görürük. Mən bu tip təsvirlərə və onların assosiasiyalarına arxetipik düşüncələr adını verirəm. Bu cür düşüncələr canlı olduqları dərəcədə duyğuların konsentrasiyasına səbəb olur və bizə təsir edərək sehrləyir. Onlar (arxetiplər) ruhun irsi varlığı içərisində yaşamasına baxmayaraq, ifadə edilməyən şüuraltının bir parçası kimidir" [4, 327s.]. Yunq, insanların genetik olaraq miras qalan vərdiş ssenarilərinə uyğun davrandıqlarını başa düşdü.

İncəsənətdə ilkin, başlanğıc obraz mənasını ifadə edən arxetip anlayışı miflərdə və folklorda yaranan bəşəri simvoldur. Arxetip bədii əsərin semantik tərkib hissəsində gizlidir. Bütün sənət əsərlərinə subyektiv yanaşma ilə birgə, klassik arxetip yanaşma təfəkkürü də qəbul olunmuş fikirlərdəndir.

Arxetipik obrazlar təsvirlər, süjetlər, yerlər, əşyalar, rənglər ola bilər. Bütün bunlar bəşəriyyət üçün ümumi kodlar kimi mədəniyyətdən, şəraitdən və məkandan asılı olmayaraq bir şeyə çevrilirlər. Bəzi anlayışlar əksər insanlar üçün başa düşülən olsa da, lakin bu ümumi kodlar mentalitetdən asılı olaraq fərqli şəkildə özünü göstərir.

Ədəbiyyatda aparılan araşdırmalar zamanı qeyd olunur ki, ritualistik əsərə təlabat azdır. Lakin struktur və psixoanalitik paradiqmalarla daha çox əlaqədə olur. F.Nitşenin "Musiqi ruhundan faciənin

doğulması” əsərində qədim yunan faciəsinin ritualdan yaranmasını təsdiqləyir. Arxetip model rolu oynayaraq bədii və mifoloji quruluş üçün, əsasən də musiqi formalarının mifoloji xüsusiyyətlərini öncədən müəyyənləşdirə bilir.

Trikster arxetipi mifologiyada, folklorda, dində müxtəlif personajlarla ifadə olunur ki, onlar da hiyləgər, oyunbaz, fitnə-fəsad arxetipidir. Ağıllı və hiyləgər, həmçinin kələkbaz və yalançı obraz – Təlxək. O, qəribə hərəkətlər və davranışlar edərək özünü gülüş obyektinə çevirən təlxək bu yolla fikirlərini söyləyir, “hiylələrini” icra edir. Təlxək məfhumunun ibtidai “şəkli” olan trikster zamanla karnaval obrazına çevrilmiş, saray mühitinə daxil olmuş, bədii əsərlərdə hətta dram əsərlərində belə müstəqil obraz kimi canlandırılmışdır. Yüksək intellekt sahibi, qayda-qanunlara tabe olmayan, öz “dünyasında” yaşayan və o yaşamın içində hadisələrə müdaxilə edən, hadisələrə istiqamət verən olduqca güclü xarakterdir. Təlxəyin kimlik daşıyıcısının əsasını təşkil edən gülüş onun bütün bu “çatışmaz” xüsusiyyətlərini ört-bastır edir, sanki onu sığortalayır.

“Xalq gülüşünün poetikası onun genezisi ilə qırılmaz surətdə bağlıdır. Mifoloji görüşlərin qismən üzdə olduğu folklor nümunələrinin genezisini araşdırmaq nə qədər vacibdirsə, komik folklor nümunələrinin də genezisini araşdırmaq bir o qədər vacibdir. Komik folklor nümunələrində arxaik elementlər daha dərin qatlarda “real” əhvalatlar arxasında gizlənsə də, həmin elementlərin tədqiqata cəlb edilməsi xalq gülüşünün poetikasını düzgün istiqamətdə öyrənməyə təkan verir, xalq gülüşünün magik mahiyyəti onun estetik mahiyyətini tədqiq etməkdə açar rolunu oynayır. Mifoloji obrazlardakı xaos və kosmos başlanğıcı komik obrazlardakı mənfi və müsbət qütblərinin arxaik kökü kimi götürülərkən, komik folklor mətnləri qədim inamlar, mifoloji görüşlər və mərasimlər baxımından götür-qoy edilərkən xalq gülüşünün bir sıra mübahisəli məsələlərinə aydınlıq gətirmək mümkün olur”. [1, 4s.]

Təlxək obrazının semantik mahiyyətinin əsəs hissəsini güldürmək, gülmək təşkil edir. O, bütün “cəsarətini”, gücünü, oyunbazlıq və hiylələrini məhz gülüşün gücü ilə icra edir. Həyatın mənəvi varlığı olan gülüş həm sevincdən doğan, fərəhdən yaranan, həm də kədərdən doğan, hətta söz kimi əvəzsiz ifadə vasitəsinin yerini tutub istehzalı “cavaba” çevrilən bir mövcudluqdur. O – gülüş, həm sevimlidi, həm də qorxulu və məhv edici. Gülüş həm də komik janrları ifadə edən bütün bu və ya digər üsulların tərkib hissəsidir. Xatırlayaq yumor, satira, sarkazm, qrotesk və s. hər biri gülüş başlıqlı lakin təsir gücü və ifadə imkanlarına görə tamamilə bir-birindən fərqli üsullardır. Lakin ümumi bir başlanğıc – komizm! Bu başlanğıc olduqca çoxşaxəli və müxtəlif təəssuratlı, lakin ümumi bir hissi və göstərişi, bəlkə də səslənməni eşitdirir - gülüşü! Komizm və onun ən ayrılmaz xüsusiyyəti olan gülüş insanlığa gülüş, özünə gülüş, başqasına gülüş, hər kəsə gülüş, eyni şeyə gülüş, anlaşılmazlığa gülüş, axmaqlığa gülüş, axmaq gülüş olmaqla komizmdə müxtəlif növləri əks edir: vəziyyətlər komediyası, xarakter komediyası, fars, təkrar komediyası olmaqla müxtəlifdir. “Gülmək – insan vücudunun psixoloji, fizioloji bir prosesi olmaqla, həm də daxili aləmin, mənəviyyatın tələbi, təzahürü, ifadəsidir. Normal insan gülməyə bilməz. Çünki, bu xüsusiyyət üçün onun varlığında fitrətən bütün əsaslar mövcuddur. Xarici aləmin müəyyən təsir və hadisələri insanda mütləq gülüş doğurmalıdır və doğurur. Gülmək, həm də insanın gözəl, xeyirxah, nəcib, məhz insani xüsusiyyətlərindəndir. Onu başqa məxluqatdan ayıran, onun yüksəkliyini göstərən ülvi, təmiz, parlaq bir əlamətdir” [3, s.3].

Böyük sənət insanlarının yaradıcılığında gülüş hər zaman öz əksini tapmışdır. O, mənəvi bir silah kimi daim istifadə olunmuşdur.İntibah dövrünün ən böyük sənətkarı, bu günün, gələcəyin – bütün zamanların yazıçısı olan, XVI əsrin sonlarında komediya və xronika tipli əsərlərlə məşhurlaşan, daha sonra faciələrə yönələrək dünya ədəbiyyatının şedevr nümunələrinin yazarı U.Şekspir yaradıcılığını izlədikdə onun komediya əsərlərinin hər birində fərqli gülüş izləyirik. Lakin bütün komediyaları mühafizəkardır. Onun ən məşhur “Kral Lir” faciəsindəki Təlxək obrazını xatırlayaq.

Təlxək daim Lirin yanındadır. O kralı hakimiyyətdən imtina etdiyi üçün ələ salsa da, Lirin sağlam düşüncəsinin səsi kimi çıxış edir. Təlxək obrazının ayrılmaz xüsusiyyətlərindən biri də onun ikili xarakter daşımasıdır. Hətta qeyd etmək olar – ikili kimlik daşıyıcısı. Bu əsərdə də o, həm kralı səhv qərarı üçün ələ salır, həm də ona yalan danışa bilmir, daim sadiqdir və kral səltənətindən düşdükdən sonra adi insan yaşamına gedən “yoldan” keçən reallıqlar dünyasına bələdçi kimi xidmət edir.

Təlxək mövcudluğunun ayrılmaz hissəsi olan gülüş və güldürmək bacarığını əsas götürərək belə bir fikir söyləməyə əsas verir ki, o bir kimlik olaraq tək var ola bilməz. O, daim kiminləsə və ya kimlərləsə dialoqda və ünsiyyətdədir. O, sanki öz həyatı daxildə başqa insanların və ya məxsus olduğu ortamın, ya da kiminsə həyatını təhlil etməklə ömrünü başa vuran bir varlıqdır. Əslində dərindən düşündükdə bu gülüş saçan insanın, düşünməyə vadar edən insanın, zarafatla hər şeyi düz deyən varlığın fərd kimi yox olduğunu dərk edib, təəssüf hissi keçirməmək olmur. Bir varlıq var, lakin o fərd olaraq, şəxsi yaşam olaraq yoxdur. Bəlkə də bəzən məsələn, Verdinin Riqolettası kimi öz yaşamı ilə bağlı qurduğu planın icraçısı olsa da, yenə də kiminsə üçün yəni qızı üçün çarpışdığını görürük. Lakin, burada o təlxək yox, ata kimi var olur. Bu xüsusu əsas götürərək, söylədiyimiz fikrin – Təlxəyin fərd kimi yox olduğunu söyləməyə əsas verir. Və o geyimdə, o ad daşıyıcısının – Təlxəyin çəkdiyi iztirab sözlərlə ifadə oluna bilmir... Baxtin bu haqda söyləyib: “Onlar həyatın aktyorlarıdır, onların mövcudluğu onların rolu ilə üst-üstə düşür və ümumiyyətlə bu roldan kənarda mövcud deyillər” [5].

Təlxək olduqca mürəkkəb obrazdır. O, dünəni, bu günü, sabahı bilir və olduqca hazır cavab, tez düşünməyi bacaran insandır. O, bəzən məsələn, “Kral Lir” faciəsində olduğu kimi Lirin sanki “daxilində” yaşayır, eyni zamanda isə qoca Lirin ömrünün sonunda özündən azad etmək istəyir, çünki Lir artıq son günlərini yaşayır və o buna qarşı çıxa bilməz. Lakin, onlar sadiqdir. Sonda “təlxək” sakitçiliyə çəkilir və susur. Yoxluğuna baxmayaraq, o yaşayır...

“Kral Lir” faciəsində təlxək obrazının fərdi adı yoxdur. Əsərin məzmununda da bunu müşahidə edirik. Təlxək əvvəldən sonadək Liri müşayiət edir, sanki onun daxilində yaşayan bir varlıq kimi çıxış edir. Qeyd etdiyimiz kimi, o var, həm də, yoxdur. Bunu onun digər əsərləri ilə müqayisədə də görə bilərik – “Hamlet” əsərində Yorik, “On ikinci gecə” əsərində Feste və s. C.Verdinin məşhur operasında təlxəyin adını xatırlayaq – Riqoletto həm baş qəhrəman, həm də ümuni hadisələrdə iştirakçısı olmaqla yanaşı, fərdi həyatını yaşayan, mübarizə aparan, çıxış yolu axtaran bir obrazdır. Lakin, “Kral Lir”dəki təlxək sanki, Lirin ruhunda yaşayır. Lir kəskin səhv qərarından sonra özü də təlxək olur. Bu anda artıq Lir təlxəyin “ruhunda”, “daxilində” olur. Bir daha izləyirik ki, təlxəyin daxil olduğu, yaşadığı ortamdan kənarda həyatı yoxdur. O qocaldı və unuduldu... Bu mürəkkəb kimlik – Təlxək hər zaman “məlum” bir obraz kimi olduqca müxtəlif təfsirlərlə əks olunub. Yorik – o əslində yoxdur. Onun yalnız kəllə sümüyündən danışılır. Lakin Hamletin məşhur monoloqu və Yoriki düşüncələrində canlandırması olduqca qeyri adi bir təəssurat yaradır.

İncəsənətin müxtəlif sahələrində komizm öz əksini tapır. İncəsənətdə yaranan bu və ya digər cərəyanlar, üsullar, janrlar, növlər daim bir-birlərinə təsir göstərir, daim bir vəhdətdə təqdim olunur. Şekspir və digər məşhur yazarların əsərləri daim bəstəkarların diqqət mərkəzində olub. F. Qasparini, C. Karkaninin, D.Skarlattinin, L. Karuzonun, F.Faccionun, S.Merkadantenin adlarını qeyd etmək olar. Bu mövzuda dram əsərlərinə, kino filmlərə, müxtəlif janrlarda yazılmış musiqiləri – F.List, P.Çaykovski, A. Varlamov, R.Ştraus, Q.Svirodov, S.Prokofyev, D.Şostakoviç adlarını qeyd etmək olar.

Dünya bəstəkarlarının opera janrında Təlxək obrazı əks olunan əsərlərdən – A.Tomanın “Hamlet” operasını, C.Verdinin “Riqoletto” operasını, M.Musorqskinin “Boris Qodunov” operasını, R.Leonkavallonun “Məzhəkəçilər” operasını, S.Prokofyevin “Üç portağala məhəbbət” operası, Ü. Hacıbəyli yaradıcılığında “Koroğlu” operasını, həmçinin D.Şostakoviç “Burun”, “Katerina İzmaylova” operalarındakı satira, qroteski və s. əsərləri xatırlamaq olar.

İstər ədəbiyyatda, istərsə də musiqidə bir obraz – Təlxəyin güldürmək və gülməyi, qeyri adi geyim tərzi istisna olmaqla, ən müxtəlif və mürəkkəb tərzdə, kimlikdə tədqim olunur. Bu da təsadüfi deyil. O, libası kimi çox rəngli hissiyatda, duyğuda və varlıqda əks olunur.

Arxetip anlayışı son illərdə güclü rezonans qazanmışdır. Bu ilk növbədə arxetip anlayışının müxtəlif sahələrdə əks oluna bilmə mövcudluğu və mifoloji məsələlər baxımından yeni tədqiqatlara aparmağa istiqamət verir.

## ƏDƏBİYYAT

1. İmanov M. K. Xalq gülüşünün poetikası. Bakı, Elm, 2006. 268 s.
2. Mazel. L.A. Musiqi əsərlərinin quruluşu (Tərc. ed.G.Hüseynova). Bakı, Maarif, 1988. 510 s.

3. Paşayev M.C. Gülüş bədii silah kimi. Bakı, S.M.Kirov ad. ADU, 1968, 39 s.
4. Yunq K.Q. Anılar, düşler və düşüncələr (Tərc. ed.: İris Kantemir). İstanbul, Can Sanay yayınları , 2023, 336 s.
5. Бахтин 1986 – *Бахтин М.М.* Литературно-критические статьи. М., 1986.

***Ü.Hacıbəyli adına BMA-nın elmi laboratoriyasının böyük elmi işçisi.Sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***E-mail: konul_ahmedova@bk.ru***

**Konul Ahmadova-Yusifova**

## FAMOUS ARCHETYPE EXAMPLE – THE JESTER

The word “archetype” originates from Greek, arche means– “beginning, initial source”, typos – “image, form”. A famous explanation of this concept was given by the Swiss psychologist Carl Jung.

Although they – jesters do not act with evil intent, are able to make cunning plans and realize the event that will happen or be experienced at that moment in the way they want. The main thing for frauds is not life itself, but the sequence of events. These characters can be the protagonist and the minor character. But in any case, they are a “fraud” who achieves their desires. Such frauds are often the objects of laughter. The fraud, the swindler are archetype of the collective unconscious in Jung’s theory that forms the images of devil-comic characters who do not obey the general rules of behavior.

**Key words:** *jester, conjurer, laughter, fraud, character, archetype, mythology, Carl Gustav Jung, Shakespeare*

**Кёнуль Ахмедова-Юсифова**

## ИЗВЕСТНЫЙ ПРИМЕР АРХЕТИПА – ВЕСЕЛЫЙ ЧЕЛОВЕК (ШУТ)

Слово «архетип» имеет греческое происхождение: arche — «начало, первоисточник» и typos — «образ, форма». Швейцарский психолог Карл Юнг дал знаменитое объяснение этой концепции.

Даже если они - клоуны не действуют со злым умыслом, несмотря на это они способны строить хитрые планы и заставлять событие происходить в данный момент так, как им хочется. Для хитрецов важна не сама жизнь, а последовательность событий. Эти персонажи могут быть как главными, так и второстепенными. Но в любом случае они — «обманщики», которые добиваются своих собственных желаний. Эти обманщики часто становятся объектами насмешек. В теории Юнга хитрость, лживость, обман также являются архетипами коллективного бессознательного, формирующими образы демонических, комичных персонажей, не подчиняющихся общим правилам поведения.

**Ключевые слова**: *шут, шутник, смех, хитрец, образ, архетип, мифология, Карл Густав Юнг, Шекспир.*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 17.10.2025**
**Son daxilolma tarixi:23.11.2025**